*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

**Qəzet 1992-ci il fevralın 11-dən çıxır   5 iyun 2020-ci il   № 34 (2452)   Qiyməti 30 qəpik**

# "Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.*



Prezident İlham Əliyevə məlumat verildi ki, dörd hektar ərazidə inşa edilən Olimpiya İdman Kompleksinin ümumi sahəsi 10 min 773 kvadratmetr, açıq idman meydançalarının sahəsi isə 8558 kvadratmetrdir. Qurğuda müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal zal, üzgüçülük hovuzu, sauna, güləş, boks, basketbol və trenajor zalları, tennis kortu inşa edilib. Burada, həmçinin mehmanxana, konfrans zalı, restoran, qış və yay kafeləri, mətbəx, həkim otaqları, inzibati kabinetlər, digər texniki və köməkçi otaqlar da yaradılıb. Fiziki imkanları məhdud olan tamaşaçıların və idmançıların kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün zəruri şərait yaradılıb. Kompleksin ərazisində 1043 tamaşaçı yerlik tribunası olan stadion, mini futbol, voleybol və basketbol meydançaları, transformator, qazanxana, nasosxana, hər biri 400 kubmetrlik içməli və yanğın su anbarları, avtodayanacaq, nəzarət buraxılış məntəqəsi də inşa edilib.

Qeyd edək ki, bu kompleksin tikintisi Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən aparılıb.

Tərtər şəhərində Olimpiya İdman Kompleksinin inşa edilməsi cəbhə bölgəsində yaşayan gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmanla sərbəst məşğul olmalarına mühüm rol oynayacaq. Kompleksə tanışlıqdan sonra Prezident İlham Əliyev rayonun bir qrup idmançısı ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyev çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dedi:

- Sirr deyil ki, Ermənistan terror dövlətidir və bunu bu dövlət dəfələrlə göstərib, hətta öz rəhbərlərinə qarşı terror törədiblər. İyirmi il bundan əvvəl Ermənistan rəhbərliyinin bir çox üzvü bu ölkənin parlamentində qətlə yetirildi və o cinayətin üstü açılmayıb. Halbuki hər kəs bilir ki, o cinayətin sifarişçiləri kimdir. Ancaq onu ört-basdır edirlər. Çünki onların terrorçu mahiyyəti bu gün də yaşayır. Kiminsə suyunu kəsmək cinayətdir. Bu, faşizmin təzahürüdür və təsadüfi deyil ki, Ermənistanda faşistlərə abidələr ucaldılır. Azərbaycanda quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır. Kasıb Ermənistanda isə ondan-bundan dilənə-dilənə, gücbəla ilə yaşayırlar, amma faşistlərə 6 metrlik abidə ucaldırlar. O adam ki, onun Hitlerlə əməkdaşlığı sənədlərlə təsdiq edilib. O adam ki, müharibə zamanı demişdir: "Almaniya uğrunda ölən, Ermənistan uğrunda da ölür". O adam ki, Sovet İttifaqının müvafiq orqanları tərəfindən həbs olunub, ona 25 il hökm oxunub, həbsxanada da ölüb və reabilitasiya olunmayıb. O adama 6 metrlik abidə ucaldılır və bugünkü Ermənistan rəhbərliyi bu adamı qəhrəman kimi təqdim edir. Bu, nəyi göstərir?! Onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır və bunu hər kəs bilməlidir. Bütün dünya bilməlidir.

Bu gün beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Bizim səylərimiz nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar vermişlər. Bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir.

Bildiyiniz kimi, bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası"nda qondarma prezident seçkiləri keçirilmişdir. Qondarma, saxta prezident guya ki, seçilib. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin törtöküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıbdır, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, onların dırnaqarası "qəhrəmanları" cinayətkar, onların rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilib. Bu, nə deməkdir?! O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə hələ ki azadlıqda. Halbuki onun da ölkədən çıxışına qadağa qoyulub. Yəni, bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıb. Əlbəttə ki, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb. O cinayətkar rejim ki, bütün milli azlıqları əzibdir. Orada bir dənə də olsun milli azlıq yoxdur. Azərbaycanın qədim torpaqlarında bir dənə də olsun azərbaycanlı qalmayıbdır.

**(Ardı 2-ci səhifədə)**

# “Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında”

**(Əvvəli 1-ci səhifədə)**



Bizim tarixi abidələrimiz, məscidlərimiz dağıdılıbdır, azərbaycanlıların tarixi irsi silinibdir. Nəinki azərbaycanlıların, heç bir başqa millətin nümayəndəsi orada yoxdur. Baxın, dünyanın əksər ölkələrində müxtəlif xalqlar yaşayır. Bu baxımdan Azərbaycan bir örnəkdir. Bunu bütün dünya etiraf edir ki, Azərbaycanda hökm sürən millətlərarası münasibətlər, dinlərarası dialoq dünya üçün nümunədir. Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası "seçkiləri" qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya bəyan ediblər ki, seçkiləri tanımırlar. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy, bir bəyanat versinlər ki, indi bu dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, onların gözlərinin çıxarılması, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi, bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu, məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıblar.

Ona görə bu beynəlxalq təşkilatların və bir çox ölkələrin mövqeyi, əlbəttə ki, bizim mövqeyimizi gücləndirir. Siyasi və hüquqi baxımdan bizim mövqeyimiz mükəmməldir, Ermənistanın mövqeyi qüsurludur. Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik. Onlar nə etdilər? Bizim kəndlərimizi bombaladılar, bax, burada Tərtərdə. Mən Aprel döyüşlərindən sonra gəlib o bombaları, o mərmiləri görmüşdüm, evlərə getmişdim. Tərtər şəhərini, Tərtərin, Ağdamın kəndlərini bombalayıblar. Bu, faşizm deyil, nədir? Dinc əhaliyə qarşı müharibə aparıla bilməz. Onların bizim ordumuza gücü çatmayıb, öz mövqelərini qoyub qaçmışdılar və nə etdilər? Dinc əhaliyə qarşı güc tətbiq etdilər. Hesab edirdilər ki, bu, tərtərlilərə, ağdamlılara təsir edəcək. Bir nəfər də tərpənmədi yerindən, bir nəfər də! Onlar bir daha gördülər ki, Azərbaycan xalqı böyük xalqdır. Mən Aprel döyüşlərindən sonra burada olarkən bir daha tərtərlilərin mərdliyini gördüm. Gördüm ki, onlar öz torpağından heç bir yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpağında möhkəm dayanıblar. Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan Ordusu gücünü göstərdi. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Ermənistan ordusunun mənbəyi xarici ianələrdir və bunu açıq etiraf edirlər ki, xarici dəstək olmadan bu ölkə batacaq, bu ölkənin gələcəyi yoxdur. Çünki demək olar ki, onların bütün qonşuları - Azərbaycan ilə Türkiyəyə qarşı açıq şəkildə, digər qonşu ölkəyə gizli şəkildə ərazi iddiaları var. Baxmayaraq ki, onlar bizim tarixi torpağımızda yaşayırlar. Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir. İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün. Balaca bir kitabça dərc etsinlər.

İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra. Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası tərəfindən nə üçün onda qərar qəbul edib bizim İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanılsın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?

Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Əl çəkdimi? Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan - qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Hansı adam? Qoy dursun, desin, mən hesab edirəm ki, Azərbaycan Demokratik Respublikası düz edib, bu işi görüb. Qoy desin. Ona görə bilirsiniz, mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm. Bu hadisə 1918-ci ildə baş verib. Ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırdım. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarixi kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən xaricdə olarkən qaldırdım və dedim ki, bu, bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir.

Münaqişəyə gəldikdə, bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Olimpiya Kompleksinin Tərtərdə açılması böyük məna daşıyır. Burada öz gücünü artıran gənclər ölkəmizin uğurlu inkişafına töhfələrini verəcəklər. Mən buna əminəm. Sizi bir daha təbrik edirəm!

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev Ağdam rayonunun ərazisindəki "N" hərbi hissədə olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 3-də Ağdam rayonu ərazisində yerləşən "N" hərbi hissədə olub.*



AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi ilə operativ müşavirə keçirdi.

Diqqətə çatdırıldı ki, dörd hektar ərazidə salınan hərbi hissənin tikintisi yüksək keyfiyyətlə həyata keçirilib. Qərargah binasında ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları yerləşir. Burada 4 yataqxana binası da var. Yataqxana binalarının hamısında hərbçilər üçün hamam otaqları yaradılıb. Hamam-camaşırxana binası da bütün tələblərə tam cavab verir. Bundan əlavə, ərazidə stomatoloq, fizioterapiya, funksional diaqnostika, prosedur otaqlarının yerləşdiyi tibb məntəqəsi qurulub. Yeməkxana binasında hərbçilərin qidalanması üçün hər cür şərait yaradılıb. Fasiləsiz elektrik enerjisi ilə təmin olunan hərbi hissədə su təminatı üçün 180 metr dərinlikdə subartezian quyusu qazılıb. Ərazidə daimi təhlükəsizliyi təmin etmək məqsədilə 24 saat xidmət göstərən qarovul evi, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədi ilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də istifadəyə tam hazırdır. Bundan əlavə, hərbi qulluqçuların ailələri üçün 48 xidməti mənzildən ibarət ikimərtəbəli 3 yaşayış binasının tikintisinə başlanıb. Hərbi hissənin ərazisi abadlaşdırılıb, yaşıllıq zolağı salınıb.



* * *

Qeyd edək ki, Azərbaycanda ordu quruculuğu sahəsində bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Odur ki, 2003-cü ildən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar ordumuzun gücünə əlavə güc qatır. Bu gün Azərbaycanı dünya birliyində layiq olduğu yerə gətirən amillər sırasında Silahlı Qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu mühüm yer tutur. Bu, həm də geosiyasi amil kimi ölkəmizin beynəlxalq aləmdə qlobal və regional yerini müəyyənləşdirir. Təsadüfi deyil ki, Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Silahlı Qüvvələrin modernləşdirilməsi, hərbi hissələrin müasirləşdirilməsi istiqamətində görülən işlər ardıcıl davam etdirilir.

# Ali Hərbi Məktəbdə dövlət imtahanları keçirilir

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində dövlət imtahanları keçirilir.*

Dörd il müddətində hazırlıq keçən və təhsil alan kursantlar bilik və bacarıqlarını nümayiş etdirirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gələcəyin zabitləri sinif otaqları və xüsusi hazırlanmış məntəqələrdə müxtəlif ixtisaslar və rəhbər sənədləri bilmələri üzrə nəzəri, çöl-səhra şəraitində isə taktiki və atəş hazırlığı, döyüş texnikasının istismarı, eləcə də digər fənlər üzrə praktiki imtahanlar verirlər.



# "Ən yaxşı motoatıcı bölük" adı uğrunda yarış keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunda "Ən yaxşı motoatıcı bölük" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışda döyüş maşını üzərində motoatıcı bölmələrin hazırlığı yoxlanılır, heyətlərin bilik və bacarıqları artırılır, döyüş vərdişləri təkmilləşdirilir.

Hərbi qulluqçular sürücülük, atış, fiziki hazırlıq və digər məşğələlər üzrə məqbulları müvəffəqiyyətlə yerinə yetirir, eləcə də verilən tapşırıqları dəqiq, vaxtında və düzgün icra edirlər.

# Azərbaycanın və Türkiyənin Ukraynadakı səfirləri iki ölkə arasında əlaqələrin inkişafını müzakirə ediblər

Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova Türkiyənin bu ölkədəki səfiri Yağmur Əhməd Güldərə ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə hər iki ölkə arasında bütün sahələri əhatə edən əməkdaşlığın perspektivləri, pandemiya dövründə Azərbaycan və Türkiyənin birgə fəaliyyəti, regiondakı ictimai-siyasi və iqtisadi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi, qondarma "erməni soyqırımı" və digər məsələlər müzakirə edilib.

Səfir Elmira Axundova bildirib ki, tarixi bağlılıq və qardaşlıq baxımından dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə ən yaxın ölkə yoxdur. "Bizim işimiz bu əlaqələri həm beynəlxalq müstəvidə, həm də ikitərəfli formatda daha da inkişaf etdirmək və bu birliyi daha da möhkəmləndirməkdən ibarətdir. Hər iki ölkə istər Dağlıq Qarabağ münaqişəsi, istərsə də qondarma "erməni soyqırımı" ilə bağlı məsələlərdə həmişə vahid, dönməz mövqe nümayiş etdirib", - deyə azərbaycanlı diplomat əlavə edib.

Türkiyə ilə Azərbaycan arasında çox gözəl münasibətlərin olduğunu vurğulayan səfir Yağmur Əhməd Güldərə qeyd edib ki, bu münasibətlər strateji əməkdaşlıq xarakteri daşıyır və qardaşlıq əlaqələrinə əsaslanır.

"Güclü iqtisadiyyata və siyasi proseslərdə böyük rola malik olan Azərbaycanda son vaxtlar ciddi islahatlar həyata keçirilir. Türkiyə Azərbaycanın regionda daha da güclənməsində maraqlıdır", - deyə Yağmur Əhməd Güldərə əlavə edib.

# ABŞ Konqresinin üzvü 28 May - Respublika Günü ilə bağlı bəyanat verib

ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupun üzvü, Nümayəndələr Palatasında Oklahoma ştatını təmsil edən respublikaçı Kevin Hern Azərbaycanın milli bayramı - Respublika Gününün 102-ci ildönümü münasibətilə bəyanat verib.

AZƏRTAC xəbər verir ki, bəyanatda 1918-ci ildə Azərbaycanın Şərqdə ilk müstəqil, dünyəvi demokratik respublika qurduğu bildirilib. Konqres üzvü uzun illər sovet nəzarətində olan Azərbaycanın Sovet İttifaqının çökməsi ilə 1991-ci ildə yenidən müstəqilliyini bərpa etdiyini və 1992-ci ildə ABŞ-ın Azərbaycanla diplomatik əlaqələr qurduğunu vurğulayıb.

Bəyanatda, həmçinin Azərbaycanın Amerikanın etibarlı müttəfiqi olduğu, Azərbaycan əsgərlərinin beynəlxalq terrorçuluqla mübarizədə ABŞ əsgərləri ilə çiyin-çiyinə xidmət etdiyi qeyd olunub. Bundan əlavə, Azərbaycanın enerji marşrutlarının müxtəlifləşdirilməsi, habelə Cənub Qaz Dəhlizi layihəsi vasitəsilə ABŞ müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığı bildirilib.

Konqres üzvü əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi dünyəvi dövlət olan Azərbaycanda xristian və yəhudi icmalarının birgə yaşadığını qeyd edərək Azərbaycandakı dini plüralizmi təqdir edib.

Sonda Konqres üzvü Azərbaycanla Oklahoma ştatının Milli Qvardiyası arasındakı tərəfdaşlığı ön plana çəkib. K.Hern Konqresdəki Azərbaycan üzrə İşçi Qrupun üzvü kimi çalışmaqdan və ABŞ-la Azərbaycan arasındakı dostluq əlaqələrindən məmnunluğunu ifadə edərək bir daha Azərbaycan xalqına səmimi təbriklərini izhar edib.

AZƏRBAYCAN ORDUSU

*15 İyun - Milli Qurtuluş Günüdür*

# Ulu Öndərin siyasi irsinin öyrənilməsi bəşəri prosesdir

Böyük tarixi şəxsiyyət Heydər Əliyev sovet dönəmində də, dövlət müstəqilliyimiz bərpa edildikdən sonra da azərbaycançılıq ideologiyasının cəfakeşi olub.

Xüsusi xidmət orqanlarında çalışan əməkdaşın geniş dünyagörüşünə, kifayət qədər yüksək təfəkkürə, analitik təhlil qabiliyyətinə, möhkəm iradəyə, qətiyyətə, ... malik olması ilkin şərtlərdən olub. Heydər Əliyev 1941-ci ildə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında, Xalq Komissarları Sovetində işləyib, 1944-cü ildə dövlət təhlükəsizlik orqanlarına göndərilib. 1969-cu ilə kimi Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində işləyib, həmçinin Komitənin sədri olub. 1969-cu ildən 1982-ci ilə qədər Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyət göstərib.

Dahi şəxsiyyətin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamını "Mən azərbaycanlıyam" deyənlərin hamısı yaşam fəlsəfəsinin mahiyyəti kimi yaşadıb, yaşadır, yaşadacaq...

Sovetlər dönəmində müttəfiq respublikada ittifaq miqyaslı sənaye müəssisəsi yaratmaq imperiyanın siyasətinə uyğun gəlmirdi. Belə müəssisəni yaratmaq üçün müttəfiq respublikanın rəhbərinin kifayət qədər böyük nüfuzu, nüfuzla bərabər dönməz məntiqi olmalıydı; Bakı Elektron Hesablama Maşınları zavodu, "Radiozavod", "Azon" zavodu, Bakı Məişət Kondisionerləri zavodu, ... yaradıldı. Bunlar müttəfiq respublikada o dövr üçün böyük və gərəkli iqtisadi tərəqqi idi. Bu tərəqqini tarix böyük tarixi şəxsiyyət Heydər Əliyevin azərbaycançılığı kimi yaşatdı. Bu zavodlar gənclərin şəhərə axınında, eyni zamanda, təhsil almasında - işləyə-işləyə ali, orta ixtisas məktəblərində oxumasında, formalaşmasında, daha geniş dünyagörüşə malik olmasında kifayət qədər əhəmiyyətli oldu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrü azərbaycançılıq ideologiyasının yaşadılmasında mühüm bir mərhələ adlandırmaq olar: azərbaycanlı gənclərin İttifaqın nüfuzlu universitetlərində təhsil alması təmin olundu. Bu, Azərbaycan üçün yüksək elmi qabiliyyətə malik milli kadrların hazırlığına göstərilən yüksək qayğı kimi dəyərləndirilməlidir. O illərdə böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanda ibtidai hərbi məktəbin yaradılmasına nail oldu. SSRİ hökuməti əyalətdə (müttəfiq respublikalar imperiya üçün əyalət idi) belə bir məktəbin yaradılmasının qarşısını ala bilmədi. "Naxımov, Suvorov adına ibtidai hərbi məktəblər varsa, buna ehtiyac yoxdur" məntiqi də dahi rəhbərin qətiyyət yüksəkliyini aşa bilmədi. Bu məktəbin Azərbaycanın sonrakı taleyində - müstəqilliyi bərpa olunduqdan



sonra istər hərbçi kadrların hazırlanması baxımından, istərsə də Qarabağda gedən döyüşlərdə nə kimi əhəmiyyətə malik olduğunu xatırlatmağa ehtiyac yoxdur. Bu məktəb həm də yeniyetmələrin vətənpərvərlik ruhunun formalaşmasında müstəsna əhəmiyyətə malik olub, indi də belədir. O illərdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin istər ittifaq, istərsə də dünya ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə inteqrasiyası yüksək səviyyədə təmin edildi. Böyük ədiblərin, mədəniyyət, incəsənət xadimlərinin adının əbədiləşdirilməsi də azərbaycançılıq ideologiyasının yaşarılığının təntənəsiydi və bu təntənə azərbaycanlıların bəşəri xalq, Azərbaycan adlı bir məmləkətin bəşəri dövlət olduğunun təsdiqiydi. Bu təsdiq Heydər Əliyevin xalqın ciddi tələbiylə hakimiyyətə gəlməsindən sonra daha şaxəli, daha miqyaslı xarakter aldı: Azərbaycan dünya birliyinə daxil oldu, dünya dövlətləri Azərbaycanla ikitərəfli, çoxtərəfli iqtisadi əlaqələr saxlamağa başladı, neçə-neçə beynəlxalq müqavilə, o cümlədən "Əsrin müqaviləsi" imzalandı. Bunlar Məhəmməd Hadinin "Yox millətimin imzası imzalar içində..." təəssüfünə tarixi təsəlli, bəşəri inam oldu...

Müstəqil Azərbaycanda ordu quruculuğu hərbi nəzəriyyələr əsasında qurulmamışdı. Böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra özünümüdafiə batalyonları buraxıldı, ölkəmizdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Horadiz əməliyyatı Azərbaycan Ordusunun döyüş əzminin, qələbə ruhunun təsdiqi kimi tarixləşdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Bu uğurlu, qətiyyətli siyasətin nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü xalqımız üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələrin şahidi olan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyinin qazanılmasında, xoş, firavan gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa-dayaq olan bir insan - ümummilli liderimiz Heydər Əliyevdir. Həmin tarixi hadisələrdən bizi 27 illik zaman kəsiyi ayırır...

Ulu Öndərin müstəqil, balanslı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının ümidlərini artırırdı. Yalnız dahi rəhbər Heydər Əliyevin siyasi təcrübəsi, dövləti idarəetmə bacarığı, iradəsi ölkəni və xalqı xaosdan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edə bilərdi. Azərbaycan xalqı bu mürəkkəb geosiyasi şəraitdə böyük siyasi xadimin hakimiyyətə gəlməsini qətiyyətlə tələb edərək öz tarixi seçimini etdi. Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra hər şeydən öncə ölkədə əmin-amanlığın inkişafı üçün geniş imkanlar yarandı. Qısa zamanda cinayətkarlığın qarşısı tam alındı, özbaşınalığa səbəb olan bütün qanunsuz silahlı dəstələr ləğv edildi. Dövlət rəhbərliyinin böyük zəhməti hesabına yaranan ictimai sabitlik, cəbhədə əldə olunan atəşkəs respublikanın inkişaf kursunu müəyyən etməyə imkan verdi. Bu da dövlət quruculuğu prosesinin uğurla aparılmasına geniş şərait yaratdı. Ən başlıcası isə odur ki, Ulu Öndərin siyasi təcrübəsi suverenliyimizin qorunub saxlanılmasında, müstəqil dövlət təsisatlarının yaranmasında və dövlət quruculuğu prosesində böyük rol oynadı. Müstəqil Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun ilk Konstitusiyası referendum, yəni, ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Bir sözlə, yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli-mənəvi sərvətlərimizə, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Müstəqil dövlətimizin keçdiyi inkişaf yolu göstərdi ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdış günü - 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günü kimi tarixə qızıl hərflərlə yazıldı. Ulu öndər Heydər Əliyevin müdrikliyi, böyük siyasi təcrübəsi sayəsində Azərbaycan dövləti məhv olmaq, siyasi xəritədən silinmək təhlükəsindən, xalqımız vətəndaş müharibəsindən, yenidən hansısa xarici qüvvələrin təsiri altına düşməkdən xilas edildi. Ölkəmizin tarixi inkişafı tamamilə yeni, işıqlı və perspektivli gələcəyə istiqamətləndi.

Böyük siyasi xadim Heydər Əliyevin qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsası qoyuldu. İndi regionda heç bir layihə Azərbaycanın razılığı və ya iştirakı olmadan həyata keçə bilməz. Azərbaycan bu illərdə dünyanın nəhəng dövlətləri ilə sıx münasibətlər qurdu, ölkəmiz Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul olundu. Üçrəngli bayrağımız beynəlxalq təşkilatlarda dalğalandı. Bu, bir xalqın, bir dövlətin məhz ulu öndər Heydər Əliyev zəhməti ilə başa gələn qələbəsi idi. Bu qələbənin əsası məhz 15 iyunda qoyuldu.

Azərbaycan əsgərinin xoş sorağı bu gün beynəlxalq sülhməramlı əməliyyatlardan gəlir. İraq və Kosovoda əmin-amanlıq yaradılması üçün vaxtilə həmin bölgələrə ezam olunmuş bölmələrimiz üzərlərinə düşən missiyanı ləyaqətlə və məharətlə yerinə yetirdilər. Hazırda Azərbaycan Ordusunun bölmələri Əfqanıstanda sülhməramlı əməliyyatlarda uğurla iştirak edir. Azərbaycan Ordusunun qazandığı bütün nailiyyət və qələbələr Ümummilli Liderin vaxtilə ordu quruculuğu sahəsində apardığı köklü islahatların nəticəsidir.

Ümummilli Liderimiz dünyaya onu da sübut etməyi bacardı ki, Azərbaycanın qədim dövlətçilik ənənəsi var. Həmin ənənəni bu gün uğurla davam etdirən, Heydər Əliyev kursunun layiqli davamçısı, Prezident İlham Əliyevdir. Aparılan siyasi kursun doğruluğunu sübut etmək üçün son vaxtlar görülən quruculuq işlərinə, əldə olunan nailiyyətlərə diqqət yetirsək, özülü Ümummilli Lider tərəfindən qoyulan inkişafın miqyasını təsəvvür etmək çətin olmaz.

Ulu Öndərin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət quruculuğu və iqtisadi inkişaf strategiyası özünün parlaq bəhrəsini verməkdədir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



## Azərbaycan hərbçiləri Moskvada keçiriləcək hərbi paradda iştirak edəcək

*İyunun 24-də Moskvada keçiriləcək Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda ölkəmizi Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət heyəti təmsil edəcək.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, paradda hərbçilərimizin ölkəmizin istehsalı olan silahlarla təntənəli keçidi olacaq.

Mərasimdə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti qonaq qismində iştirak edəcək.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**5 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Azərbaycan Ordusu - 102*

# AZƏRBAYCAN ORDUSU dünya orduları ilə müqayisə ediləcək dərəcədə inkişaf edib və adı böyük hərflərlə yazılmağa layiqdir

"Nankor qonşusu tərəfindən haqsız ərazi iddialarına məruz qalan, torpaqları işğal edilən ölkə ordusunun inkişaf etməməyə, yüksək döyüş qabiliyyəti və mənəvi-psixoloji səviyyəyə malik olmamağa, peşəkarlaşmamağa, qüdrətlənməməyə mənəvi haqqı yoxdur. Eyni zamanda, torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün təmin olunması kimi müqəddəs vəzifədən, vuruşaraq ərazilərimizi düşməndən azad etmək əzmindən də Azərbaycan Ordusunun dönmək niyyəti yoxdur. Əslində, başqa cür ola da bilməz. Bunu bizdən zaman, xalq, dövlətimiz tələb edir."



Bu fikirlər Müdafiə Nazirliyi Mətbuat Xidmətinin əməkdaşı, hərbi jurnalist İsa İsmayılovun "Dünya orduları ilə müqayisə ediləcək qədər yüksəlmiş və adı böyük hərflə yazılmağa layiq olan AZƏRBAYCAN ORDUSU" sərlövhəli yazısında yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Azərbaycan Ordusu sözünün yazının başlığında böyük hərflərlə yazılması heç də təsadüfi deyil. Bu, bir növ orduda xidmət edən, ordumuzun güclənməsi, qüdrətlənməsi naminə yorulmadan çalışan, fəal iştirak edən, əlindən gələni edən, bacardığı qədər bu prosesdə zəhməti olan insanların əməyinə veriləcək qiymətin və ordu quruculuğunda qısa müddət ərzində belə böyük uğurlar qazanmağa nail olan Azərbaycan dövlətinə, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanına ehtiramın kiçik bir göstəricisidir.

Bu gün öz gücü, qüdrəti, imkanları, döyüş əzmi, mənəvi ruhu, təminatı, təchizatı, ən müasir döyüş vasitələrinə və sadalamadığımız digər parametrlərinə görə dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutan ordumuz haqqında danışarkən adının böyük hərflərlə yazılması, sözün həqiqi mənasında, çox balaca və simvolik bir jest olduğunu başa düşmək çox da çətin deyil. Azərbaycan Ordusu bu gün nail olduğu uğurlara görə, sözün həqiqi mənasında, hörmətə, ehtirama, sevgiyə və dəstəyə layiq olan ORDUDUR.

Yola saldığımız may ayı tarixi və əlamətdar günlərlə zəngindir. Faşizm üzərində Qələbənin 75 illiyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü və 28 May - Respublika Günü. Bu bayramları hörmət və böyük ehtiramla qeyd edərkən, Vətənimizin çiçəklənməsi yolunda canını qurban verən, sağlamlığını itirən, xalqımız qarşısında xidmətləri olan insanların əməyi də minnətdarlıq hissi ilə qeyd edilir. Əlamətdar günlərdə həmin insanları xatırlayarkən və tarixi şəxsiyyət Heydər Əliyevin xidmətlərindən danışarkən Ulu Öndərin Azərbaycan dövlətçiliyi tarixində ən böyük əsəri olan güclü, qüdrətli Azərbaycan Ordusundan danışmamaq düzgün deyil.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu gün qətiyyətlə davam etdirilən Azərbaycan Ordusunun inkişaf prosesi bütün illər ərzində daim yüksələn templə, planlı şəkildə həyata keçirilib.

Əslində, başqa cür ola da bilməz. Nankor qonşusu tərəfindən haqsız ərazi iddialarına məruz qalan, torpaqları işğal edilən bir ölkənin ordusunun inkişaf etməməyə, yüksək döyüş qabiliyyəti və mənəvi-psixoloji səviyyəyə malik olmamağa, peşəkarlaşmamağa, qüdrətlənməməyə mənəvi haqqı yoxdur. Ordumuz artıq bu parametrlərə cavab verən həddə yüksəlmişdir və yüksəlməkdə davam edir. Bunu bizdən zaman, xalq və dövlətimiz tələb edir.



Eyni zamanda, torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün təmin olunması kimi müqəddəs vəzifədən, vuruşaraq ərazilərimizi düşməndən azad etmək əzmindən də Azərbaycan Ordusunun dönmək niyyəti yoxdur. Məhz buna görə də ordumuzun güclü, müasir silahlara, döyüş qabiliyyətinə, döyüş ruhuna, qələbə əzminə malik olması labüddür, qaçılmazdır və zamanın tələbidir.

Deyirlər təkrar biliyin anasıdır. Bu deyimə əsaslanaraq son bir neçə il ərzində alınan, ölkəmizdə istehsal edilərək ordumuzun istifadəsinə verilən silahları bir daha sadalamaq yerinə düşər. "İldırım" və modernləşdirilmiş S-125, "RM 7085", "Qasırğa", "Ekstra", "Polonez", "LORA" və s. kimi zenit-raket sistemləri, S-31 "Vena", "DANA", "TOC-1A Solntsepyok", "MSTA-S", 2A 36 "Geasint" və s. kimi artilleriya və minaatan sistemləri, "SPAYK" və "XRİZANTEMA-S" kimi tank əleyhinə idarəolunan raket kompleksləri, T-90S tankları, BMP-3, ZTR 82 A və s. kimi zirehli-döyüş texnikaları, "Super Muşşak", L-39 təlim-döyüş təyyarələri, "BELL-412", "MD-530" və "Mİ-35" helikopterləri, "AEROSTAR", "HERON", "ORBİTER", yüzlərlə yeni növ kamikadze tipli "Zərbə" və kəşfiyyat-müşahidə pilotsuz uçuş aparatları (PUA), eləcə də açıqlanması məqsədəuyğun olmayan digər hərbi döyüş vasitələri. Ən əsası isə bütün bu texnika və silahlardan peşəkarlıqla, bacarıqla, inamla, effektiv istifadəyə qadir olan Azərbaycan hərbçiləri də hazırlanıb. Bütün bunları gördükdən, bildikdən sonra əminliklə deyə bilərik ki, müasir silahlarla, texnoloji avadanlıqlarla təchiz edilən bölmələrimiz qısa müddətdə döyüş vəziyyətinə gətirilməklə, günün istənilən saatında və istənilən iqlim şəraitində döyüş tapşırıqlarını maksimal səmərəli icra etmək gücünə və imkanına malikdir. Buna heç şübhə edilməsin.

Döyüş əməliyyatlarının keçiriləcəyi ərazilərin xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınaraq düşmən üzərində qəti qələbəni təmin etmək məqsədilə ordumuzun silahlanmasına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da son müşavirədə qeyd etdiyi kimi, Türkiyə, Fransa, İspaniya, İtaliya, İsrail, Rusiya, Belarus və hərbi sənayesi inkişaf etmiş digər ölkələrdən alınan müasir silah və hərbi texnikalar, eləcə də digər hərbi təyinatlı avadanlıqların daxil edilməsi prosesi davam edir.

Bir faktı da qeyd etmək yerinə düşər ki, artıq ordumuzun imkanlarının gücləndirilməsi istiqamətində atılan addımlarda müasir döyüş taktikasına uyğun olaraq, düşmənlə birbaşa təmasa girmədən onun qüvvə və vasitələrini məhv etmək məsələsi daim ön planda yer alır. Tam qətiyyətlə deyə bilərik ki, düşmənlə döyüş meydanında üz-üzə gəlməzdən əvvəl, uzaq məsafədən zərbələr endirməklə onun hərbi strukturlarını iflic vəziyyətə salmaq, canlı qüvvələrini maksimum demoralizə etmək istiqamətində də artıq böyük işlər görülüb. Ordumuzun sərəncamında olan və bir neçə yüz kilometrlərlə məsafədən yüksək dəqiqliklə atəş açmaqla böyük dağıdıcı imkanlara malik silahlar bunu deməyə əsas verir.



"Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq" fikirlərini səsləndirməklə Müdafiə nazirimiz də yuxarıda qeyd etdiyimiz istiqamətdə böyük işlərin görüldüyü faktını təsdiqləyib.

Burada daha bir məqamı da təkrarən qeyd etmək yerinə düşər. Ordumuzun genişmiqyaslı təlimlər keçirməsi, istifadəsində olan silahlardan bacarıqla yararlanması, qarşıya qoyulan təlim-döyüş tapşırıqlarını ustalıqla icra etməsi üçün yaradılan imkanlar həm ölkəmizin iqtisadi qüdrətindən xəbər verir, həm də böyük zəhmətin, elmi, mənəvi, fiziki ehtiyatların səfərbər edilməsi deməkdir. Bunu hərbçilərimiz gözəl başa düşür. Xalqımız, dövlətimiz də əmin ola bilər ki, döyüş qabiliyyətinin artırılması məqsədilə gündəlik keçirilən məşqlərə və planlı şəkildə icra edilən təlimlərə yaradılan imkanların hədər getmədiyini ordumuz hər an düşmənlə döyüşdə sübut etməyə hazırdır və qadirdir. Necə ki, bunu 2016-cı ilin Aprel və 2018-ci ilin Günnüt əməliyyatları zamanı əldə etdiyi uğurlarla sübut etdi. Bu gün tam əminliklə demək olar ki, həmin qələbələri yenidən təkrarlamağa ordumuzun gücü, imkanı, döyüş texnikası, peşəkarlığı, mənəvi-psixoloji hazırlığı və döyüş əzmi tam yetərlidir.

**PS:** Yuxarıda qeyd etdiyimiz kimi, bütün bu sadaladıqlarımızdan sonra əlimizi ürəyimizin üzərinə qoyaraq təkrarən deyə bilərik ki, Azərbaycan Ordusu bu müsbət fikirlərə və adının böyük hərflərlə yazılmasına layiqdir.

Fikrimcə dövlət müstəqilliyimizin qarantı olan ordumuzun bu xoş sözlərə layiq olduğunun daha bir göstəricisi, Azərbaycan Ordusunun müqayisə edildiyi, bir cərgədə adı çəkildiyi həmin ölkələrin ordu quruculuğu tarixi, dövlətlərin belə qüdrətli ordular yaratmaq üçün sərf etdikləri illər, verdiyi qurbanlar, dözdüyü məhrumiyyətlər və səfərbər etdikləri maddi resurslarıdır. Biz buna tarixi baxımdan çox qısa bir zaman kəsiyində nail olmuşuq ki, bu da alqışa layiq məqamdır.

Bəli, bu gün 1000 illik, 500 illik ordu quruculuğu təcrübəsi olan ölkələrin orduları ilə eyni sırada Azərbaycan Ordusunun da adının çəkilməsi qürur, hörmət, sevgi, ehtiram və rəğbət hissi doğurur. Əgər ordumuzun uğurlarından danışarkən azərbaycanlıyam deyən kimsə bu gözəl hissləri keçirmirsə, duymursa, yaşamırsa, deməli, ya o şəxslərin daxilində bu gözəl duyğular yoxdur, ya da onlar özlərini azərbaycanlı hesab etmirlər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**
**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

**Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi.

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu*

Azərbaycanda ordu quruculuğunun əsasının qoyulması 1918-ci ilə təsadüf edir. Həmin il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra təşkil olunan ilk hökumət kabinetinin tərkibində Hərbi Nazirlik də var idi. Azərbaycanın tanınmış ictimai-siyasi xadimi olmuş Xosrov bəy Sultanov isə hərbi nazir vəzifəsinə təyin olundu. Həmin dövrdə Azərbaycan son dərəcə mürəkkəb hərbi-siyasi şəraitdə qərar tutduğundan və qısa müddət ərzində Azərbaycan xalqının müstəqilliyi ilə barışmayan bolşevik-daşnak qüvvələrinin qarşısını almağa qadir olacaq hərbi qüvvələrin yetişdirilməsi mümkün olmadığından Azərbaycan hökuməti hərbi kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə uyğun olaraq Türkiyə hökuməti Azərbaycana hərbi yardım göstərmək qərarına gəldi və Azərbaycana hərbi qüvvələr göndərdi. Həmin dövrdə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycana göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Azərbaycanda ordu quruculuğuna və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Ona görə Azərbaycan hökumətinin ilk kabinetinin tərkibinə daxil edilmiş Hərbi Nazirliyin təşkili müvəqqəti olaraq təxirə salındı. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olundu və İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edildi.

Azərbaycanın milli ordu qüvvələrinin əsasını hələ Cümhuriyyətin elan edilməsindən əvvəl yaradılan və general-leytenant Əlağa Şıxlinski tərəfindən rəhbərlik edilən Müsəlman Korpusu təşkil edirdi. 1918-ci il iyun ayının 26-da Müsəlman Korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. Həmin gün hazırda Azərbaycan Ordusunun yaradılması günü kimi qeyd edilməkdədir.

Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil edir. 1918-ci il noyabr ayının 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Nazirlər Şurasının qərarına əsasən, Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski hərbi nazir vəzifəsini öz üzərinə götürdü. Rusiya ordusu sıralarında tam artilleriya generalı rütbəsinə qədər şərəfli xidmət yolu keçmiş Səməd bəy Mehmandarov isə hərbi nazirin müavini təyin edildi və Hərbi Nazirliyin formalaşdırılması ona həvalə olundu.

Birinci Dünya müharibəsinin nəticələrinə görə qalib elan edilmiş Müttəfiq dövlətlərin Bakıya gəlmiş hərbi qüvvələri komandanlığının tələbi ilə Hərbi Nazirlik 1918-ci il noyabrın 22-də Gəncəyə köçmək məcburiyyətində qaldı. Yəni, Hərbi Nazirlik 1919-cu il iyun ayının sonlarına kimi paytaxtdan və hökumət orqanlarından uzaqda fəaliyyət göstərməli oldu. 1919-cu il iyun ayının sonlarında Bakıya köçürülən Hərbi Nazirlik Krasnovodsk və Merkuri küçələrinin (indiki Zərifə Əliyeva və Səməd Vurğun küçələri) kəsişməsindəki binada yerləşdirildi və Cümhuriyyətin süqutuna qədər burada fəaliyyət göstərdi.

1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov Azərbaycan hökumətinin qərarı ilə hərbi nazir, dekabr ayının 29-da isə general-leytenant Əlağa Şıxlinski (28 iyun 1919-cu ildən etibarən tam artilleriya generalı) hərbi nazirin müavini vəzifəsinə təyin edildilər.

Azərbaycan hökuməti Hərbi Nazirliyin qarşısında ölkənin ərazi bütövlüyünü müdafiə etməyə qadir olan ordunun yaradılması vəzifəsini qoymuşdu. Hərbi Nazirliyin rəhbərləri fədakar xidmətlərinin sayəsində bu vəzifənin öhdəsindən uğurla gəldilər. Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycan Ordusunda hər biri səkkiz alaydan ibarət olan iki piyada diviziyası, iki əlahiddə piyada diviziyası, üç alaydan ibarət olan süvari diviziyası, iki artilleriya briqadası və digər hissə və bölmələr mövcud idi.

1920-ci il aprelin 28-də 70 mindən artıq olan bolşevik hərbi qüvvələrinin hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycanda hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra Hərbi Nazirliyin bazasında Azərbaycanın Hərbiyyə və Bəhriyyə Komissarlığı yaradıldı.

1922-ci ilin sonlarına, yəni, SSRİ təşkil edilənə kimi Azərbaycan və onun Hərbiyyə və Bəhriyyə Komissarlığı formal müstəqilliyini saxladı. Azərbaycan SSRİ tərkibinə daxil edildikdən sonra Hərbiyyə və Bəhriyyə Komissarlığı nazirlik statusunu itirmiş oldu. Azərbaycanda hərbi işlərə rəhbərlik SSRİ mərkəzi orqanlarının səlahiyyətinə keçdi.

*Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri*

XX əsrin sonlarında ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında respublika prezidentinin 5 sentyabr 1991-ci il tarixli Fərmanına əsasən Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabr ayının 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi.

1993-cü ilin ortalarına kimi ölkədə hərbi-siyasi vəziyyətin gərgin olması nəticəsində ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilmişdi. Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox özünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı. Ordu siyasiləşmiş, hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi. Nəticədə, Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və Azərbaycanın neçə-neçə rayonunun sonrakı işğalı üçün zəmin yaradıldı.

Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması ulu öndər Heydər Əliyevin 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə xalqa müraciətindən sonra başladı. Ordu və Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda köklü dəyişikliklər həyata keçirildi.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Azərbaycan Ordusuna tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabr ayının 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabr ayının sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad edərək, düşmənin bu istiqamətdə yerləşən hərbi qruplaşmasını darmadağın etdilər. Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gələrək 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular və bununla da Azərbaycan Ordusunun yenidən qurulmasına şərait yarandı.

Dövlətçilikdə varislik anlayışına önəm verən ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanı ilə 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib.

Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı Fərmana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası fəaliyyətə başlamış, 2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi yaradılmışdır. Mərkəzdə zabit heyətinin təkmilləşdirmə, ehtiyat zabit hazırlığı, gizir hazırlığı və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursları fəaliyyət göstərir.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, döyüş hazırlığı dərsləri keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır. Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi strategiyaya əsaslanan ordu quruculuğu prosesi xalqımızın zəngin və şərəfli ənənələrini qorumaqla həyata keçirilməkdədir. Bu gün öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanına malik olan Azərbaycan Ordusu dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də od-alovundan keçərək mətinləşdi, müasir inkişaf səviyyəsinə gəlib çatdı. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır.

2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir.

Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini (beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 52 ordu sırasında) tutub. 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də dövlət başçısı ölkəmizin və ordumuzun inkişaf tendensiyasını, onun gücləndirilməsi istiqamətində atılan addımları xüsusi vurğuladı.

"Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşıya qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Bizim hərbi potensialımız da möhkəmləndi. Keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərin həlli bizim hərbi gücümüzü daha da artırmışdır" - deyə ölkə başçısı ordunun inkişaf məsələsinə toxunmuşdur.

Ordumuzun döyüş hazırlığının daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsində qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi, nəhayət şəxsi heyətin sosial-məişət şəraitinin müasir dünya standartlarına uyğun qurulması nəticəsində qarşıya qoyulmuş hədəflərə nail olunmuş və bu istiqamətdə tədbirlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

**İdeoloji İş və**
**Mənəvi-Psixoloji**
**Təminat İdarəsi**

*Düşüncələr*

# Hər vətəndaş döyüş növbətçiliyindədir

Azərbaycan əsgərinin döyüş növbətçiliyi Vətənə sevgidi, dövlətə, dövlətçiliyə sədaqətdi. Hansı fəsil olursa-olsun, ayam əsgərlərin könlünə yatırsa, gözəldi, gözəldirsə, bizim də könlümüzcədi. Bu ilin qışı mülayim keçdi. Sərt keçsəydi də döyüş növbətçiliyi aparanların torpağa məhəbbətinə görə, Vətənə sədaqətinə görə, hərbi xidmətin mahiyyətinə görə səngərdəkilərə təsir göstərə bilməzdi. Bu, səngərin qüdrəti deyil, səngərdəkilərin müqəddəsliyə müqəddəs münasibətinin qüdrətidi.

Səngər müharibə deməkdi;...

Səngərin nə olduğuna mən də bələdəm. Ömrümün səngərli günlərini də, səngərdə ilk dəfə nəfəs dərdiyim anları da yaxşı xatırlayıram, ilk səngərli günümdə buludların arasından sıyrılan Günəşi də, bu işığın sarıldığı gözəllikləri də...

...1993-cü ilin yazıydı. Ağdərədə səngərdən göy üzünə baxanda əvvəl-əvvəl gözlərim alacalanmışdı - Günəş hərdən görünürdü, hərdən buludların arxasına çəkilirdi. Səngərlərin yanyörəsində sakitliyiydi. Arada gözlərimizi müharibədən bixəbər quşların nizamsız uçuşu çəkirdi. Özümə də bəlli olmayan səbəblərə görə düşüncələrimin nizamı quşların uçuşuna tamsınırdı. Uzaqlardan ara-sıra güllə səsləri eşidilirdi. Gözlənilmədən Günəşin üzünə tül qalınlığında bulud sarılmışdı. Səngərli günümün güllə səslərinə sarı boylanmaq istəmişdim. Yusif Mirzəyev (ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü) əlini çiynimə qoyub arxayınlıqla, "Qarasına atırlar" - demişdi, yəni, ünvansız atışlardı. Güllələrin ünvansız atıldığını bilsək də, sükutu dinləmək, səssizliyi dinləmək istəyiylə səngərdən çıxmışdıq. Yusifin əli hələ çiynimdən üzülməmişdi. Bir müddət beləcə dayanmışdıq. Bir qədər aralıda çən-çisək görünəndə Yusif demişdi ki, çən yan-yörəni bürüyə bilər, əsgərin döyüş əzminə, qələbə ruhuna yaxın düşəmməz. Alnını ovuşdurub "Neçə aylardı gecələrin yuxusunu güllələr dağıdanda da, döyüşlərdə də, döyüşlər səngiyəndə də qələbə haqqında düşünürük. Ermənisizləşdirdiyimiz Çaykənddə, suları hələ durulmayan çayın sahilində Fəğanın dediklərini yəqin ki, sən də unutmayıbsan: "...Bu qələbə başlanğıcdı. Daha böyük qələbələr qazanacağıq...". Oğullar bu niyyətlə xidmət edirlər...", - demişdi. Hospitalda müalicə olunan Fəğanın neçə ay əvvəl çay qırağında dediklərinin cazibəsində, Fəğanı tanıyan əsgərlərin əhatəsində əsgərlərin döyüş əzmindən, qələbə ruhundan danışmışdıq. Əsgərlərlə həmin söhbət haqqında, həmin ovqatla söhbətləşdik. Kəlmələr döyüş əzminin, qələbə ruhunun ifadəsiydi.

Zabit Çingiz Mahmudov dedi ki, döyüş növbətçiliyi aparan əsgərlər yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdirlər. Bu hazırlıq Böyük Qələbə üçündü.

Səngərin də, səngərdəkilərin də dəyişdiyini, səngərin yerinə yetirdiyi vəzifənin mahiyyətinin dəyişmədiyini bir daha duydum. Əsgərlərə Birinci Qarabağ müharibəsindən söz açdım, Yusiflə həmin səmimi, şirin söhbətimizi danışdım. Dünənimizin tarixi kimi maraqla, Azərbaycanın Milli Qəhrəmanı haqqında bilmədikləri bilgi kimi dinlədilər. Zabit İbrahim Süleymanlı dedi ki, bizim hərbi hissənin əsgərləri də Fəğan kimi düşünürlər, belə demək mümkünsə, onun xidmət yolunu mənəvi varislik kimi davam etdirirlər, Böyük Qələbənin əsgəri olmaq istəyirlər. İstəyirlər ki, döyüş əmri onlar tərxis olunana kimi verilsin. Əsgərlərimiz həm də deyirlər ki, bir var hərbi xidmətdə olasan, bir də var döyüşmək üçün səlahiyyətli təşkilatlardan xahiş edəsən. Kim bilir, bu xahişə əməl ediləcəkmi, ediləməyəcəkmi...

Əsgərlər babalarının döyüş xatirələrindən, atalarının hərbi xidmət xatirələrindən danışdılar, torpaqlarımızın işğaldan azad edilməsiylə tamamlanacaq döyüşlərdən danışdılar. Bir daha inandım ki, Birinci Qarabağ müharibəsində iştirak edənlərin nəvələri Ali Baş Komandanın əmriylə müharibəni sonlandıracaq, torpaqlarımızı işğaldan tamamilə azad edəcək, səngərləri sərhədlərə köçürəcək.. "Adi olduğu qədər də qeyri-adi olan bir günün içindən ruhumuzun gözləriylə işğaldan azad edilmiş rayonlarımıza sarı baxdıq. Ruhən Cıdır düzündə bir niyyətin gen dövrəsində halay çəkəcəyimiz tonqalların göy üzünü qarsılayacaq alovunu görürük. Mənə elə gəldi ki, əsgərlərin səmimi kəlmələri buluddan sıyrılmış Günəşin işığına qarışdı və bu işıq mənim, mənim timsalımda bütün jurnalistlərin, jurnalistlərin timsalında ictimaiyyətin bürüncəyi torpaqlarımızın işğalı olmuş könül qübarını silməyə qadir olan ümidin, inamın qüdrəti gücündədi. Nə dedi əsgərlər?

- Babalarımız yerli müdafiə batalyonunda döyüşüb, Horadiz əməliyyatında iştirak edib, atalarımız ordumuzun əsgəri olub, biz hərbi xidmətdəyik. Babalarımızın, atalarımızın döyüş yolunu davam etdirmək, qələbəylə tamamlayacaq əsgərlərin sırasında olmaq bizim həm əsgəri borcumuzdu, həm də vətəndaşlıq borcumuzdu. Ali Baş Komandanın əmriylə döyüşlərdə iştirak etmək istəyirik, - əsgər Rahib Eyvazov belə dedi.

- 2016-cı ilin Aprel döyüşlərində yeniyetməydik. Onda həmyaşıdlarım kimi mən də döyüşlərə getmək istəmişdim. Həm yaşımızın azlığı, həm də ordu hissələrimizin bizə, eləcə də əhaliyə ehtiyacı olmadığını dedilər, yəni, icazə vermədilər. İndi hərbi xidmətdəyəm. Mən də, əsgər yoldaşlarım da Rahibin dediyini deyirik: Torpaqlarımızı işğaldan azad edəcəyik. Biz də Böyük Qələbənin əsgəri olmaq istəyirik. Hamımızın hərbi xidmət amalı budur, - əsgər Dünyamin Tağızadə belə dedi.

- Biz də inanırıq ki, Böyük Qələbəyə az qalıb. Qələbənin iştirakçısı olmaq, qalib əsgər kimi tərxis olunmaq istərdik, - əsgər Samir İsmayılov dedi. - Bayaq 27 il əvvəlin bir səngərli günü, həmin gün bir əsgərin dediklərini xatırladınız. Hərbi hissəmizdə xidmət edən hansı əsgərinsə atası bəlkə də Fəğanın xidmət yoldaşı olub. Yəni, bu günün əsgərlərinin atası belə düşünüb. Biz də onlar kimi düşünürük. Ali Baş Komandan döyüş əmri verəndə tərxis olunmuş əsgərlərimiz də bizim sıralarımıza qayıtmaq istəyəcəklər. Onlarla qələbədən sonra işğaldan azad edilmiş kəndlərimizdə quruculuq işlərində birlikdə çalışacağıq. Hərbçi məsuliyyətiylə çalışacağıq...

Əsgər Cavid Alibanov dedi ki, Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar mənim də yadımdadır. Bu paradlardan çağırışçı kimi qürurlanmışdım, sonralar əsgər kimi qürurlandım.

Əsgər Elşən Nəsirovun dediklərini maraqlı, düşündürücü bir məqamın ifadəsi bildik:

- Müharibə bizdən az qala 10 yaş böyükdür. İllərdi körpələr vaxtından əvvəl yeniyetmələşir, yeniyetmələr vaxtından əvvəl cavanlaşır, cavanlar əsgərləşir, əsgər olur, döyüşür. Çoxumuzun babası Qarabağda yerli müdafiə batalyonlarının tərkibində döyüşlərin iştirakçısı olub, atalarımız ermənilərin təxribatlarının qarşısının alınmasında iştirak edib. Onların xatirələrini eşidəeşidə böyümüşük. Şəhidliyin nə olduğunu da ilk dəfə onların xatirələrini eşitdikdən sonra dərk etmişik. Biz də bilirik ki, şəhidlərin ruhu qələbə gününün intizarındadı. Biz həm də bu ruhları intizardan xilas etmək üçün xidmət edirik.

- Şəhid ömrü ölümsüzlük düsturudu, - deyirəm. Sözümü bitirər-bitirməz zabit Çingiz Mahmudov dedi ki, Azərbaycan Respublikası Prezidentinin son sərəncamlarından biri məhz şəhidlərə ehtiramın təzahürüdür.

- Şəhidlik ifadəsinin mahiyyəti Vətən sevgisi ifadəsinə çox yaxındı, - deyirəm və buludların arxasından sıyrılmış Günəşə baxıram. Mənə elə gəlir ki, könül xoşluğuna dönən bu sıyrılmada rəmzi bir mahiyyət var: bu sıyrılma qalib əsgər kimi tərxis olunma niyyətli əsgərlərə təbiətin xeyir-duasıdı. Günün bu vaxtı səngərdə, əsgərlərin əhatəsində bir qələbə ovqatı yaşadıq. "Azərbaycan əsgərinin əhatəsində həmişə belə ovqat yaşanılır", - dedim. Bu işığı fikir ümumən Azərbaycan əsgərinə ünvanlandığından əsgərlərin üz-gözünü qələbə rəngli bir ovqat-sevinc, ovqat-fərəh bürüdü. 2016-cı ilin Aprel döyüşlərindən də danışdıq, torpaqlarımızın Ali Baş Komandanın döyüş əmriylə işğaldan azad ediləcəyindən də. Bugünkü söhbətimiz əsgərlərin döyüş əzminin, qələbə ruhunun işığında tamamlandı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgərlərlə yanaşı, zabitlərin də hərbi hissəni özbaşına tərk etməsi halları artıb. Bu günlərdə məlum olub ki, üç nəfər zabit hərbi hissədən qaçıb.

Belə ki, 6-cı dağ atıcı alayın zabitləri Daro Harutunyan və Albert Hambaryan hərbi hissədə mövcud olan dözülməz şəraitə etiraz əlaməti olaraq xidmət yerlərini icazəsiz tərk ediblər. Digər zabit, artilleriya divizionunun komandiri Qaprel Qaprelyan isə məzuniyyətə getmiş və istirahət müddəti bitdikdən sonra hərbi hissəyə qayıtmaqdan imtina etmişdir.

Hər üç fərari zabit barədə hərbi polisə məlumat verilib, cinayət işi açılıb və araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən iki hərbi qulluqçu təhlükəsizlik qaydalarının pozulması nəticəsində baş verən partlayışda xəsarət alıblar.

1-ci motoatıcı alayın döyüş mövqeyində xidmət edən əsgərlər hərbi hospitala təxliyə olunublar.

Hadisənin şahidlərinin dediyinə görə 12.7 millimetrlik iriçaplı pulemyot mərmilərinin partlaması nəticəsində əsgər Qurqen Qalustyan əlindən, əsgər Artur Asoyev isə əl və ayaq nahiyəsindən yaralanıb. Müayinədən və ilkin tibbi yardım göstərildikdən sonra həkimlər hər iki hərbi qulluqçunun vəziyyətinin orta ağır olduğunu bildiriblər.

Faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgərlər arasında nizamnamədənkənar münasibətlər zəminində baş verən daha bir cinayət faktı ortaya çıxıb.

Hərbi qulluqçular tərəfindən təhqirlərə və təzyiqlərə məruz qalan əsgər Arman Mesropyan odlu silahdan atəş açmaqla özünə qəsd edib. Şahidlərinin dediyinə görə özünə qəsd etməzdən əvvəl A.Mesropyan odlu silahdan atəş açaraq onunla birlikdə bölükdə feldşer kimi xidmət edən digər hərbi qulluqçunu da ağır yaralayıb.

Faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçu koronavirusa yoluxduğuna və müalicəsinə komandanlıq tərəfindən laqeyd yanaşıldığına görə intihara cəhd edib .

İşğal edilmiş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən bölmələrdən birində xidmət edən Enrik Zakaryan koronavirus infeksiyasına yoluxduğu üçün tibb məntəqəsinə aparılıb və müayinə edildikdən sonra geri qaytarılıb.

Həkimlərin və komandanlığın laqeydliyindən hiddətlənən əsgər tabeliyində olan silahdan atəş açaraq özünü öldürmək istəyib. O, hərbi hospitala təxliyə edilib. Komandanlıq hadisənin ailə-məişət zəminində baş verdiyini bildirib.

Hərbi polis faktla bağlı araşdırmaya başlayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinə məxsus silah-sursat anbarında yanğın baş verib.

Ağdərə istiqamətində yerləşən hərbi anbarda baş verən yanğın böyük bir ərazini əhatə edib. Yanğın nəticəsində meydana çıxan partlayış səsləri yaxınlıqdakı yaşayış məntəqələrində də eşidilib. Hadisə yerinə bir neçə mülki yanğınsöndürən maşını cəlb olunub.

Hadisə yerinə qondarma "DQR" ordusunun rəhbəri Cəlal Harutunyan gəlib. Yanğının qəsdən törədildiyi ehtimal olunur. Bildirilir ki, komandanlıq özünün "qara" silah ticarətinin üstünü ört-basdır etmək və anbarlarda çatışmayan hərbi əmlakı qeydiyyatdan silmək üçün bu yanğını törədib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Könlüm şeir istəyir

# Aprel zəfəri poeziyamızda



*2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun güclü ordu olduğunu təsdiqlədi. İctimaiyyət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamını Böyük Qələbənin də qazanılacağına dönməz inam bilir.*

*Aprel zəfəri, Cocuq Mərcanlının yenidən qurulması bədii əksini poeziyada da tapıb. Xalq şairi Fikrət Qocanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə yenidən qurulan Cocuq Mərcanlıda yazdığı şeirlərin bir hissəsini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

## Xalqın səninlədir, zəfər sənindir

Arxada qoyduğun izlər yol olub,
Qarşıda nə qədər işlər, görüşlər.
Ayağın altında yollar yorulub.
Qarşıda yenə də işlər və işlər...

Ruhun da, qəlbin də daim çalışır,
Həmişə xalqının arasındasan.
Yolunu gözləyən küsür, barışır,
Uzun bir ömürün yarısındasan.

Xalqa ümid verən, ocaq yandıran
İlhamın haqq sözü, haqq divanı var!
İlhamın ruhunu İlhamlandıran
Xalqın sevimlisi Mehribanı var.

Xalqının dərdinə daim yanırsan,
Qarşına məqsədlər qoydun, bitirdin.
Ölkən cavanlaşır, sən yaşlanırsan,
"Qara şəhər"lərə ağ gün gətirdin.

Ruhlar da Şuşada, Cıdır düzündə,
Ali Baş Komandan, sizi izləyir.
Ölkədə hamının gözü üzündə,
Hücuma əmiri Sizdən gözləyir.

Xalqın səninlədir, zəfər sənindir.
Xalqı arzusuna yetirəcəksən!
Zəfərə inanmaq - imandır, dindir.
Bizə xoşbəxt günlər gətirəcəksən!

Xalqımın yenilməz igid ər oğlu.
Özün də Öndərsən, ey Öndər oğlu!
Uca Allahımız qorusun səni,
Ey Heydər atası, ey Heydər oğlu!

## Biz Cocuq Mərcanlılıyıq

Dağlı, eniş-yoxuşlu,
Torpaqlı, daşlı, quşlu,
Ağaclı - vətəndaşlı
Hamımız bir canlıyıq.
Biz Cocuq Mərcanlılıyıq.

Yollar qəddi, ütülü,
Bulaq-sükut bülbülü,
Şehli bağların gülü -
- Qəlbi həyəcanlıyıq.
Biz Cocuq Mərcanlılıyıq.

Körpədən son yaşacan,
Lap ayaqdan-başacan.
Ey böyük Azərbaycan
Hamımız bir canlıyıq!
Biz Cocuq Mərcanlılıyıq.

## Aprel şəhidləri

Bizi ilk qarşılayan
Aprel şəhidləriydi,
Bu Cocuq Mərcanlının
Ən müqəddəs yeriydi.
Ayağına gül qoyduq
Şəklinə baş əydik.
Ay oğul təki belə
Toyunuza gələydik.
Daim gənc qalarsınız
Göz aydın, üzü gülər,
Daim ayağınızı
Öpəcək qızıl güllər.
Əsgər gedən oğullar
Burdan gedər döyüşə.
Sevən yaşıdlarınız
Bura gələr görüşə.
Gələnlər gedəcəklər
Kimi ucalacaqdı,
Kimi qocalacaqdı,
Kimi zəfər çalacaq!
Düşməndən intiqamı
Dönə-dönə alacaq!
Aprel döyüşçüləri
Belə cavan qalacaq.
Onlar zamandan güclü,
Dövrandan üstündülər.
Onlar gecə aydılar.
Gündüzlər də gündülər...
Eh... Bunlar hamısı sözdü,
Şəhidlər ölümsüzdü!

## Lələtəpə

Dədəm Qorqudun dövründə
Laləli bir təpə idim
Sonradan lələ olmuşam,
Bir Lələtəpə olmuşam.

Başımın üstündə Allah
Əlimdə üçrəngli bayraq.
Gecə, gündüz, axşam, sabah,
Ana yurda keşikçiyəm.

Xalqın dağ olmuş səsiyəm,
Mən igidlər nərəsiyəm.
Mən lələlər lələsiyəm.
Məktəblərin zəng səsiyəm.

Dağam, dağlar balasıyam.
Mərcanlılar qalasıyam
Hələ mənim çox işim var
Çox zəfərlər çalasıyam.

Yurdun Lələ dayağıyam
Elin Lələ bayrağıyam
Əsgərlərin səngəriyəm
Düşmənlərə göz dağıyam.

## Şuşa məscidi

Cocuq Mərcanlıya
Şuşadan qonaq gəlib.
Cocuq Mərcanlının ağ gününə
Geyinib dümağ gəlib.
Şuşanın məscidi namaza durub.
Əllərini Allah dərgahına qaldırıb.
Qarabağa azadlıq diləyir.
"Allahım köməyimiz ol!", - deyir.
Azanın səsi
Haqqın qapısını döyür.
Məscid onun üzüdü,
İçi insan içidi.
Bu Şuşadakı Məscidin özüdü,
Əsgərlərimizə gəlmiş elçidi.
"Gəlin bizi alın!", - deyir.
"Gəlin zəfər çalın!", - deyir.
Azərbaycanın ən uca Şuşa
səhnəsindən,
"Qarabağ Şikəstəsi"nin səsindən
Ən uca zənguləsindən
"Yadları salın!
Qarabağı alın!", - deyir.
Məsciddə görüş
Ruhu titrədən bir görüşdü.
Ordumuz ayağa qalxsa
Şimşək kimi çaxsa
Ordumuz üçün ən asan iş döyüşdü.
Qalanını tarix yazır.
Hər azərbaycanlının içində
Bir əsgər var
Döyüşə hazır!

## Yaman olur

Havadan, sudan, çöldən
Gözəllik ətri gəlir.
Qızılgüllər titrəyir
Əlvan ləçəklər gülür.
Bu gözəllik qoynuna
Tanrı nuru tökülür...
Sevincdən gözüm dolur.

Şirin dil son hədd ola
İnsanlar arasında.
Ölkələr arasında
Qızılgül sərhəd ola...
Yar həsrəti-hicranı
Ən çəkilməz dərd ola...
İnsanlar mələk olur.

Beşiyim, məzarımsan
Ana torpağım mənim.
Qəlbin qəlbimdə vurur
Ay Qarabağım mənim.
Bülbüllər yetişdirən
Havam, bulağım mənim.
Görürəm rəngin solur.

Səni belə görəndə
Tufan olur, qan olur.
Hirsim qaynayıb daşır,
Səbrim ilə savaşır.
Bizə döyüş yaraşır,
Bizə zəfər yaraşır.
Hikkəm başımdan aşır
Ruhum dağa dırmaşır,
Varlığım tufan olur.
Xalq bu həddə gələndə
İntiqam yaman olur.

## Qarabağ bayatıları

Düzüm-dağım Qarabağ,
Cənnət bağım Qarabağ!
Biz odlar övladıyıq,
İlk ocağım - Qarabağ!

Qarabağ - böyük bağdı.
Dağı da - böyük dağdı.
Qarabağ bizim olub,
Bizim də olacaqdı.

Qarabağ bir cahandı,
Qarabağ canda-candı.
Qarabağın anası
Böyük Azərbaycandı.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə axtarışına 1 milyon türk lirəsi ayrılan terrorçu könüllü təslim olub



Aparılan təbliğat və ailələrlə danışıqlar nəticəsində daha bir təhlükəli terrorçu Türkiyənin təhlükəsizlik qüvvələrinə təslim olub.

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Bildirilir ki, Haqqaridə könüllü olaraq təslim olan terrorçunun ələ keçirilməsi üçün 1 milyon türk lirəsi pul ayrılmışdı. Hələlik terrorçunun şəxsiyyəti açıqlanmayıb.

Qeyd edək ki, DİN-in iyunun 2-də yaydığı məlumata görə, ailələrinin köməkliyi ilə daha dörd terrorçu təslim olub. Bununla da, cari ildə təslim olan terrorçuların sayı 82 nəfərə çatıb.

## Gürcüstan Silahlı Qüvvələri üçün yeni hərbi texnika və silah alacaq



Gürcüstan müdafiə qüvvələrinin silah və hərbi texnikasını yeniləmək niyyətindədir. Bu məqsədlə cari ildə NATO standartlarına uyğun bir neçə yüz ədəd yeni hərbi texnika almağı planlaşdırırıq.

Bu barədə ölkənin Müdafiə naziri İrakli Qaribaşvili "Rustavi 2" televiziyasındakı çıxışı zamanı məlumat verib.

Nazir deyib ki, müdafiə qüvvələri ölkədə koronavirusun yayılmasının qarşısının alınmasına mühüm töhfə veriblər. Lakin proses zamanı bəzi texniki problemlər müəyyən edilib. Cari ildə əsas vəzifələrimizdən biri də köhnəlmiş hərbi texnikaları yeniləri ilə əvəzləməkdir.

"Biz NATO və Avropa standartlarına uyğun xüsusi texnika və avadanlıq almağa hazırlaşırıq. Ordumuz müasir texnika ilə vəzifələrinin öhdəsindən daha layiqincə gələcək", - deyə İ.Qaribaşvili vurğulayıb.

## Pentaqon etiraz aksiyaları fonunda Vaşinqton ətrafına 1,6 min hərbçi göndərib



Pentaqon Minnesota ştatının Minneapolis şəhərində Afrika əsilli amerikalı Corc Floydun qətli ilə bağlı etirazlar və iğtişaşlar səbəbindən ABŞ paytaxtının ətrafına 1,6 minə yaxın hərbçi göndərib.

Bu barədə məlumat ABŞ-ın müdafiə qurumunun rəsmi nümayəndəsi Conatan Hoffman tərəfindən açıqlanıb.

"Nizami ordunun hərbçiləri paytaxtın özündə deyil, Vaşinqtonun hərbi bazalarında yerləşdirilib", - deyə Conatan Hoffman bildirib. Pentaqon rəsmisinin sözlərinə görə, hərbçilər yüksək hazırlıq səviyyəsinə gətirilsə də, mülki hakimiyyət orqanlarının fəaliyyətinə qarışmır.

Qeyd edək ki, Afrika əsilli amerikalı Corc Floydun polis tərəfindən öldürülməsindən sonra ABŞ-ın bir çox ştatında iğtişaşlarla müşayiət olunan etiraz aksiyaları başlayıb. Kütləvi iğtişaşlar səbəbindən Vaşinqton və Nyu-York da daxil olmaqla, ölkənin təxminən 40 şəhərində komendant saatı tətbiq olunub. Yerli hüquq-mühafizə orqanları ilə yanaşı, etiraz aksiyalarının dağıdılmasında Milli Qvardiya da qismən iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Foladi Həbib Nüsrət oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Abbasov Gülalı İsa oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 376
Nüsxə 3960